**Azərbaycan Respublikası Mədən Sənayesində Şəffaflıq Təşəbbüsü çərçivəsində 30 iyun 2007-cı il tarixində başa çatan 6 ay üzrə Müstəqil Mühasiblərin Hesabatı (7-ci hesabat) ilə bağlı İctimai Birliklərin MSŞA Koalisiyasının**

**Rəyi**

İctimai Birliklərin MSŞA Koalisiyası 7-ci hesabat üzrə növbəti auditin nəticələrinin açıqlanmasını önəmli hadisə sayır və bunu Azərbaycan hökumətinin ölkədə fəaliyyət göstərən neft və qaz şirkətləri ilə birgə mədən sənayesində şəffaflığın artırılması yolunda atılan daha bir vacib addım kimi qiymətləndirir. Bununla yanaşı MSŞA Koalisiyası Hökumət Komissiyası və neft şirkətləri ilə birlikdə imzaladığı Anlaşma Memorandumunun tərəflərindən biri kimi 7-ci hesabat üzrə növbəti auditin nəticələrini müstəqil surətdə təhlil edərək, aşağıdakı nəticələrə gəlmişdir.

Nəticələr 2 hissədən ibarətdir. Bura birbaşa 7-ci hesabatın, 2-si isə indiyədək aparılan son 3 hesabatın təhlilərindən əldə olunan nəticələr daxildir.

**<u>7-ci hesabatın təhlilindən əldə edilən nəticələr üzrə:</u>**

***1.1. Hesabatın təqdim edilməsi müddətinin ləngidilməsi narahatlıq yaradır.*** MHŞT üzrə Hökumət Komissiyası, mineral ehtiyatların hasilatı sahəsində çalışan yerli və xarici şirkətlər və MSŞA Koalisiyası arasında 24 noyabr 2004-cü il tarixində imzalanmış Qarşılıqlı Anlaşma Memorandumunun 5-ci bəndinin f) yarımbəndinə əsasən yekun "Müstəqil mühasiblərin hesabatı" hər hansı uyğunsuzluğun aradan qaldırılması və belə uyğunsuzluğun əhəmiyyətsiz olması barədə ümumi razılığa gəlinməsi şərti ilə bütün tərəflərə hesabatın audit şirkətinə təqdim olunduğu son tarixdən sonra 30 gün ərzində və ya uyğunsuzluq tam həll olunduqdan sonra təqdim edilir. Memorandumun 5-ci bəndinin c) yarımbəndində yarımillik hesabatların audit şirkətinə avqustun 15-də təqdim edilməli olması göstərilir. Müstəqil mühasiblərin bu hesabatı isə dekabrın sonlarında, başqa sözlə, Memorandumda nəzərdə tutulduğundan 3 ay sonra təqdim olunub. Müstəqil mühasiblərin hesabatında hökumətin, habelə yerli və xarici şirkətlərin hesabatlarının Memorandumda müəyyən edilən müddətdə (yəni yarımillik hesabatlar üzrə avqustun 15-i) təqdim edilib-edilməməsi və ya ləngidilməsi barədə məlumat yoxdur. Belə olduğu təqdirdə hesabatda olan və rəydə "əhəmiyyətsiz" hesab olunan uyğunsuzluqların aradan qaldırılması üçün bu qədər uzun zaman müddətinin sərf olunması anlaşılmazdır. Müstəqil audit şirkəti uyğunsuzluqların aradan

qaldırılması müddətinin azaldılmasına və yekun Hesabatın vaxtında təqdim edilməsinə diqqəti artırmalıdır.

***1.2. Hesabatlarda olan uyğunsuzluqların say çoxluğu və təkrarçılığı narahatlıq yaradır***. Audit şirkəti 30 iyun 2007-ci il tarixdə başa çatan 6 ay üzrə hökumətin və yerli və xarici şirkətlərin hesabatlarının tutuşdurulması zamanı 12 uyğunsuzluq aşkara çıxarıb. Bu uyğunsuzluqların 8-i hökumətlə xarici şirkətlərin hesabatları arasında, 4-ü icə hökumətlə yerli şirkətlərin hesabatları arasında meydana çıxıb. Müstəqil mühasiblərin bundan əvvəlki hesabatında (6-cı hesabat) da - 31 dekabr 2006-cı il tarixdə başa çatan il üzrə hökumətin və yerli və xarici şirkətlərin hesabatlarının tutuşdurulması zamanı - 12 uyğunsuzluq olub: bunların 9-u hökumətlə xarici şirkətlərin hesabatları arasında, 3-ü icə hökumətlə yerli şirkətlərin hesabatları arasında yaranıb. Bu uyğunsuzluqların əksəriyyəti məzmunca da oxşar olub. Müvafiq hesabatların hazırlanması və təqdim edilməsi sahəsində artıq kifayət qədər təcrübə toplanmasına rəğmən (artıq 7-ci dəfədir ki, belə hesabatlar hazırlanır) hesabatlarda bu qədər “səhv”lərə yol verilməsi, bunların sayının azalmaq əvəzinə artmağa doğru meyllənməsi və xüsusilə, uyğunsuzluqların məzmunca təkrarlanması yolverilməz hesab olunmalıdır. Koalisiyanın əvvəlki rəylərində də bu məsələ dəfələrlə tərəflərin diqqətinə çatdırılsa da problemin davam etməsini təəssüf hissi ilə qeyd etməliyik. Koalisiya bu vəziyyəti hesabatları hazırlayan tərəflərin məsələyə kifayət qədər ciddi münasibət göstərməməsi kimi qiymətləndirir.

***1.3. Təqdim olunan hesabatlarda ifadə vahidlərində olan və terminoloji xarakterli fərqlər anlaşılmazlıq və narahatlıq yaradır.*** Müstəqil mühasiblərin hesabatında əksini tapan uyğunsuzluqların şərhi zamanı hökumətlə xarici şirkətlərin hesabatlarında qazın fərqli həcmləri məhz istifadə olunan ölçü vahidlərinin fərqli olması ilə izah olunur. Eyni hesabatlarda gəlir vergisi və mənfəət vergisi terminlərindən paralel istifadə olunur ki, bu da yeni uyğunsuzluqlar yaradır. Bu problemlər də indiyəcən olan bütün hesabatlarda təkrar olunur və bunların aradan qaldırılması istiqamətində irəliləyişlərin olmaması Koalisiyanı narahat edir.

Hökumətin auditor şirkətinə təqdim etdiyi hesabatda xarici şirkətlərin ödədiyi mənfəət vergisinin məbləği dollarla, ictimaiyyətə açıqladığı hesabatda isə həmin məbləğ isə manatla göstərilib. Arada uyğunsuzluğun yaranmaması və məlumatın səhihliyinin təmin edilməsi üçün hər iki hesabatda həmin məbləğlərin xarici şirkətlərin ödənişi həyata keçirdikləri valyutada, yəni ABŞ dollarında göstərilməsini daha məqsədəuyğun hesab edirik.

***1.4. Hesabatların təhlili üçün şirkətlərin fəaliyyətini xarakterizə edən zəruri informasiyalara çıxış problemli olaraq qalır.*** Şirkətlərin hesabatlarının fərdi qaydada açıqlanmaması audit rəyində göstərilən kənarlaşmaların hansı şirkətlərin günahı ucbatından baş verməsini müəyyənləşdirməyə çətinlik yaradır. Digər tərəfdən isə İctimai Birliklərin MSŞA Koalisiyasının informasiya sorğusu məqsədilə BP və ARDNŞ-ə ünvanladığı məktubların

cavablandırılmaması narahatçılığı daha da artırır. Koalisiyanın həmin şirkətlərə ünvanladığı məktubun cavablandırılmaması "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanunun tələblərinin pozulması kimi qiymətləndirilir və ictimai diqqətə təqdim olunur.

**<u>Son 3 hesabatın təhlilərindən əldə edilən nəticələr üzrə:</u>**

***2.1.Hesabat dövründə ölkəmizin xeyrinə planlaşdırılan dəyişikliklər gözlənildiyi kimi qeydə alınmayıb.***

2007-ci ilin artıq birinci yarımilliyində planlaşdırıldığının əksinə olaraq AÇG sazişində məsrəflərin kəskin artması üzündən Azərbaycan tərəfi şirkətlərlə müqayisədə hələ də gözlənilən yüksək rentabellik mərhələsinə keçə bilmədi. Ötən rəyimizdə bu məsələyə münasibət bildirsək də yaranmış vəziyyətin və qərarlaşmış tendensiyanın əhəmiyyətini nəzərə alaraq, bir daha bəyan edirik ki, cari hesabatın təhlili göstərdi ki, bu istiqamətdə vəziyyət əvvəlki dövrlə müqayisədə yaxşılığa dogru dəyişsə də yenə də Azərbaycan tərəfinin payının təsirli dərəcədə artmasına hələ ki, gətirib çıxartmamışdır. Belə ki, son hesabat dövründə (2007-ci ilin 6 ayında) ABƏŞ tərəfindən hasil edilən bütün neftin təxminən 20 %-ə qədəri hökumətin payına düşüb. Xatırladırıq ki, ötən ilin müvafiq dövründə bu nisbət 11,8%, ötən il ərzində isə 13% olub. Bunu təsdiq edən aşağıdakı rəqəmlərə nəzər yetirək. BP-nin müvafiq hesabatından məlumdur ki, 2007-cı ilin 6 ayında ABƏŞ-in bütövlükdə kapital xərcləri -1.337 mlrd.doll., əməliyyat xərcləri isə – 180 mln. doll. olub. O da məlumdur ki, bu dövr ərzində saziş çərçivəsində cəmi yüklənmiş xam neft 14 milyon 877 min 266,75 ton təşkil etmişdir. Neftin 2007-cı ilin 6 ayında Brent markalı neftin Aralıq dənizi hövzəsi üçün orta aylıq qiymətinin 63,31 dollar olmasını nəzərə alsaq, 2007-cı ilin 6 ayında cəmi 6.952 mln. dollar məbləğində ümumi gəlir əldə edilib. Kapital və əməliyyat xərclərini çıxandan sonra hesabat dövründə bölüşdürülməli olan mənfəət nefti 5.435 mln. dollar məbləğində qalır. Onda Azərbaycan hökümətinə çatan məbləğ 1.630 mln. dollar olmalıdır. Hesabatda göstərildiyi kimi, dövr ərzində xarici şirkətin hasilatında hökümətin natural şəklində payı 16 mln. barrel, pul şəklində payı isə 23,2 mln. dollar təşkil edib. Bu isə o deməkdir ki, həmin dövrə olan orta qiymətlə dövlətin bu dövr üçün ümumi payı 1.035 mln.dollar olur. Bu isə bölüşdürülməli olan mənfəətin 20 faizinə qədərini təşkil edir.

**2.2.** ***Yerli şirkətlərin, xüsusilə ARDNŞ-in hesabatlılıq sistemi və hökumətə ödəmələri ziddiyyətli xarakter daşıyır.*** *Son* hesabatlar üzrə audit rəyinin təhlili göstərdi ki, yerli şirkətlərdən hökumətə daxilolmalar haqqında məlumat yenə də ziddiyyətlidir. Belə ki, 7-ci hesabatda qeyd edilir ki, 2007-ci ilin ilk 6 ayında yerli şirkətlərdən (xatırladaq ki, söhbət ARDNŞ-in və onun iştirakı ilə ölkədə fəaliyyət göstərən və Anlaşma Memorandumunun tərəfdaşları olan Birgə Müəssisələrin yalnız hasilat sənayesində fəaliyyəti çərçivəsində hökumətə ödəmələri nəzərdə tutulur) ümumi daxil-olmalar 179,9 mln. AZN-dir. Halbuki 2006-cı ilin eyni dövründə bu məbləğ

403, 6 mln. AZN olub (xatırladaq ki, 2005-ci ilin ilk 6 ayı üçün yerli şirkətlərin büdcəyə belə ödənişləri 119 mln. AZN təşkil edib).

Konkret olaraq yerli şirkətlərin ödədikləri mənfəət vergisinin həcmi ilə əlaqədar narahatlıq Koalisiyanın əvvəlki rəylərində (xüsusilə 5-ci hasabata rəyində) ifadə olunub. Belə ki, əgər 2005-ci ilin ilk 6 ayı üçün yerli şirkətlərdən daxil olan mənfəət vergisi 8,5 mln.AZN., 2006-cı ilin eyni dövrü üçün 11,6 mln.AZN., 2007-ci ilin hesabat dövrü 15,7 AZN. olub.

Anlaşılmazlıq yaradan da məhz son 3 ilin ilk 6 ayları üzrə yerli şirkətlərin hökumətə ödənişlərinin məbləğlərində olan cüzi dəyişikliklərdir. Halbuki, həm hasilat həcmlərinin artması, həm də dünya neft bazarının əlverişli konyunkturası prosesin kəskin artıma doğru meylli olmasına gətirib çıxartmalı idi.

***2.3. Dünya bazarında satış qiymәti ilә hesabat üçün ortalığa çıxan qiymәt arasında yaranan fәrq konkret açıqlamalar tәlәb edir.*** Daha bir narahatlıq neftin dünya bazarında satış qiyməti ilə hesabat üçün ortalığa çıxan qiymət arasında fərqin olmasında özünü biruzə verir. Burada məntiqi olaraq hökumətin ayrı-ayrı podratçının mənfəət neftini satması prosesində qeyd etdiyi satış qiymətinin nə dərəcədə real olması və bu prosesə hökumətin nəzarətinin nə dərəcədə səmərəli olması sual doğurur.

**İctimai Birliklərin MSŞA Koalisiyası Təşəbbüs çərçivəsində hökumətin 7-ci hesabatı üzrə aşağıdakı təkliflərin nəzərə alnmasını tövsiyyə edir:**

1. *Müstəqil mühasiblərin hesabatında hökumətin, habelə yerli və xarici şirkətlərin hesabatlarının Memorandumda müəyyən edilən müddətdə təqdim edilib-edilməməsi və ya ləngidilmə olduğu təqdirdə bunun səbəbləri barədə izahatın öz əksini tapması məqsədəuyğundur;*
2. *Müstəqil audit şirkəti uyğunsuzluqların aradan qaldırılması müddətinin azaldılmasına və yekun Hesabatın vaxtında təqdim edilməsinə diqqəti artırmalıdır.*
3. *Anlaşma Memorandumun tələblərindən irəli gələrək, mövcud hesabat sisteminin təkmilləşdirilməsi məqsədilə tərəflər arasında yeni müzakirələrə start verilməlidir;*
4. *Hökumətin və yerli və xarici şirkətlərin təqdim etdikləri hesabatlarda ifadə vahidlərində olan və terminoloji xarakterli fərqlərin aradan qaldırılması istiqamətində zəruri işlər sürətləndirilməlidir;*
5. *Şirkətlərin hesabatlılıq sistemində bilməyərəkdən yaranmış problemin həllı məqsədilə məsul heyət üçün kurslar təşkil olunmalıdır;*
6. *Yerli şirkətlər, xüsusilə ARDNŞ onların hökumətə ödəmələri üzrə hesabatlarında olan ziddiyyətlərə aydınlıq gətirməli və ictimaiyyətə zəruri açıqlamalar verilməsini təmin etməlidirlər.*

Bununla yanaşı, İctimai  Birliklərin MSŞA Koalisiyasının bundan əvvəlki hesabatlar üzrə verdiyi rəylərində olan tövsiyələrin hələ də nəzərə alınmadığını əsas tutaraq həmin Tövsiyələrə diqqətin artırılması zəruriliyini bir daha Hökumət Komissiyasının diqqətinə çatdırır.